**BAKI DÖVLƏT UNİVERSİTETİ QAZAX FİLİALI**

**TƏSDİQ EDİRƏM**

**Direktor __________ A.S.Rüstəmov**

**« 13 » « mart » 2024-cü il**

Bakı Dövlət Universiteti Qazax filialı Direktorluğunun 30 dekabr 2022-ci il tarixli İclasının (Protokol №15) qərarı ilə qəbul edilmişdir.

Bakı Dövlət Universiteti Qazax filialı Direktorluğunun 13 mart 2024-cü il tarixli İclasının (Protokol № 3) qərarı ilə düzəliş və əlavələr etməklə təkmilləşdirilmiş yeni redaktədə qəbul edilmişdir.

# BAKI DÖVLƏT UNİVERSİTETİNİN QAZAX FİLİALINDA TƏHSİLİN KEYFİYYƏTİNİN DAXİLİ TƏMİN OLUNMASI SAHƏSİNDƏ SİYASƏT

**QAZAX-2024**

## 1. Ümumi müddəalar

1.1. Bakı Dövlət Universitetinin Qazax filialının daxili keyfiyyət təminatı siyasətini əks etdirən sənəd BDU-nun 2021-ci ildə təsdiq etdiyi "BDU-da təhsilin keyfiyyətinin daxili təmin olunması sahəsində siyasət və standartlar"ına əsaslanır. Mövcud sənəd keyfiyyətin təmin olunması və bu sahədə mədəniyyətin fasiləsiz olaraq inkişaf etdirilməsinin ümumi yanaşmalarını, əsas prinsiplərini və mexanizmini əks etdirir.

1.2. Keyfiyyətin təmin olunması siyasəti və standartlar məntiqi və ardıcıl düzülmüş bir tsikldir. Bu tsikl daim təkmilləşir və Filial həyatının bütün sahələrində keyfiyyətin təmin olunması mədəniyyətinin inkişafını əhatə edir.

1.3. Keyfiyyətin təmin olunması sahəsində siyasət elmi tədqiqat, təlim və tədris arasındakı milli və Filialdaxili əlaqələri əks etdirir.

1.4. Keyfiyyətin təmin olunması sahəsində siyasət və standartlar Filialın bütün struktur bölmələrinin iştirakını nəzərdə tutaraq həyata keçirilir.

1.5. Keyfiyyətin təmin olunması sahəsində siyasət və standartlar rəsmi statusa malikdir və geniş ictimaiyyətə BDU-nun www.bsu.edu.az saytı və Filialın BDU-Qazax filialı/BSU-Gazakh Branch facebook səhifəsi vasitəsi ilə çatdırılır.

1.6. Keyfiyyətin təmin olunması sahəsində siyasət nəzarətdə saxlanılır və tələblərin dəyişməsinə uyğun olaraq yenidən işlənilir.

## 2. Əsas anlayışlar

2.1. **Təhsilin keyfiyyəti** – təhsilalanların hazırlanması və təhsil fəaliyyətinin kompleks xarakteristikası olub dövlət təhsil standartlarına, peşə standartlarına və əsas steykxolderlərin tələbatlarına, həmçinin təhsil proqramının planlaşdırılan məqsəd və nəticələrinə uyğun gəlmə dərəcəsini xarakterizə edir.

2.2. **Keyfiyyətin təmin olunması** müəyyən şəraitin yaradılması və lazımi resursların ayrılması prosesi olub, təhsil proqramlarının məzmununun, təhsil imkanlarının və ayrılan vəsaitin müəyyən olunmuş məqsədlərə və tələb olunan keyfiyyət səviyyəsinə uyğunluğunu təmin edir.

2.3 BDU-nun Qazax filialında keyfiyyətin daxili təmin olunması sistemi təhsil proqramlarının keyfiyyətinin daim artırılması və fasiləsiz təkmilləşdirmək mədəniyyətinin inkişaf etdirilməsi üçün zəruri olan ali məktəbin təşkilati strukturu, daxili sənədləşdirmələr, göstəricilər, proses və resursların cəmidir.

2.4. **Keyfiyyət mədəniyyəti** – Filialın bütün əməkdaşlarının qəbul etdiyi keyfiyyətin əsas prinsiplərini əhatə edən təşkilati qaydadır. Universitetin keyfiyyət mədəniyyəti aşağıdakıları nəzərdə tutur:

- əməkdaşların hər birində "təhsilin keyfiyyəti"nə vahid yanaşma və təhsilin keyfiyyəti probleminə vahid dünyagörüşünün formalaşdırılması
- hər bir əməkdaşın onun üçün təhsilin keyfiyyətinin nə demək olduğunu və öz iş yerində yüksək keyfiyyətə necə nail olmağı başa düşməsi;
- struktur bölmələrinin yüksək keyfiyyətə doğru irəliləmə yollarını müəyyən

etməsi və başa düşməsi;

- keyfiyyəti idarə etmək mümkünlüyünün və bu prosesin mexanizmini müəyyən etmək yollarının başa düşülməsi.

2.5. **Steykholder**- Universitetin fəaliyyətinin nəticələrinə maraqlı olan şəxs (və ya insanlar qrupu). *Daxili steykholderə* təhsil proqramının bütün səviyyələri üzrə təhsilalanlar, professor-müəllim heyəti və əməkdaşlar aiddir. *Xarici steykholderlərə* isə məzunlar, işəgötürənlər, qanunverici və icraedici orqanlar, tərəf müqabillər aiddir.

## 3. Keyfiyyətin təmin olunması sahəsində Filialın siyasəti, missiyası və şüarı

3.1. Bakı Dövlət Universitetinin Qazax filialı təhsilə insanın, cəmiyyətin və dövlətin maraqları çərçivəsində şəxsiyyətin hərtərəfli inkişafı üçün ölkənin elmi, inzibati və təsərrüfat müəssisələri ilə qarşılıqlı əlaqədə universitet tərəfindən həyata keçirilən vahid proses kimi baxır, təhsilin yüksək keyfiyyətini ali təhsil müəssisəsinin fəaliyyətinin ən vacib prioritetlərindən biri hesab edir və keyfiyyət siyasətinin formalaşmasını universitetin strateji idarəedilməsi əsaslarından biri kimi nəzərdə tutur.

3.2. Keyfiyyətin təmin olunması sahəsində missiya elm, təhsil və istehsalatın vəhdətini təşkil etməklə, qloballaşan dünyanın çağırışlarına uyğun olaraq təhsil xidmətlərinin keyfiyyətinin yüksəldilməsindən ibarətdir. Missiyanın əsasında maraqlı tərəflərin (steykxolderlərin) tələblərinə cavab verən, innovativ texnologiyaları bilən, pedaqoji və sosial-iqtisadi problemlərini effektiv həll etməyi bacaran rəqabət qabiliyyətli mütəxəssislərin hazırlanması dayanır.

3.3. Filialın şüari: keyfiyyətli təhsil-uğurlu gələcəyə aparan yoldur.

3.4. Gələcəyə baxış: ölkənin və regionun təhsil və elm sahəsində müasir standartlara cavab verən aparıcı universitetləri sırasına daxil olmaq.

## 4. Keyfiyyətin təmin olunması prinsipləri

4.1. Filial verdiyi təhsilin keyfiyyətinə və onun təmin olunmasına görə məsuliyyət daşıyır.

4.2. Filial keyfiyyətin təmin olunmasının aşağıdakı əsas prinsiplərini müəyyən edir:

- keyfiyyətin təmin olunması ali təhsil sisteminin, təhsil müəssisələrinin, təhsil proqramlarının və tələbələrin müxtəlifliyinə uyğun gəlməsi;
- Normativ fəaliyyətə və qanunverici tələblərə, ESG təkliflərinə uyğun gəlmə;
- Filial rəhbərliyinin əsas rolu ondan ibarətdir ki, proqramın inkişafı, siyasət və proseduralar, bütün əməkdaşların keyfiyyətin təmin olunması və yüksəldilməsi fəaliyyətinə cəlb edilməsi, lazımi resurslarla təmin edilməsi bir proqram kimi həyata keçirilməsi;

- Daxili və xarici maraqlı tərəflərin (steykholderlərin) tələbatları və gözləntilərinin nəzərə alınması, onların təhsilin keyfiyyətinin təmin olunması və yüksəldilməsi fəaliyyətinə cəlb edilməsi;
- təhsilalanlara münasibətdə ədalətlilik və bərabər imkanların yaradılması,
- akademik ləyaqətliliyin və müstəqilliyin qorunması, istənilən formada korrupsiya və diskriminiasiyaya dözümsüzlük;
- proseslərdə keyfiyyət və standartlara əsaslanan məsuliyyətin dəqiq müəyyən edilməsi;
- Verilənlərin və informasiyanın hərtərəfli təhlili əsasında qərarların qəbul edilməsi;
- fasiləsiz olaraq keyfiyyətin daxili təmin olunması və keyfiyyət mədəniyyətinin inkişaf etdirilməsi sistemlərinin təkmilləşdirilməsi üçün şəraitin yaradılması;
- keyfiyyətin təmin edilməsi siyasətinə müntəzəm olaraq yenidən baxılmasının təmin edilməsi;
- maraqlı tərəflərə informasiyanın çatdırılması və şəffaflıq üçün şəraitin yaradılması.

4.3. Keyfiyyətin təmin olunması və inkişaf etdirilməsi Filialda həyata keçirilən bütün təhsil proqramları üçün tətbiq edilir.

4.4. Filialın rəhbərliyi keyfiyyətin təmin edilməsinin daxili sistemini daim yaxşılaşdırır və onun müasir beynəlxalq standartlara uyğun gəlməsini təmin edir,

4.5. Filial rəhbərliyi struktur bölmələrinin və kafedraların sifarişləri əsasında lazım olan materialların, avadanlıqların, tədris-metodiki və elmi ədəbiyyatın alınmasını təmin edir, təhsil proqramlarının maddi-texniki bazasının infrastrukturunu yaxşılaşdırır, təhsil proqramına xidmət edən müəllimlərin stimullaşdırılmasını və onların peşəkarlıq səviyyəsinin yüksəldilməsini təmin edir.

4.6. İnstitusional və proqram akkreditasiyası, profilaktik nəzarət çərçivəsində Filialın fəaliyyətinin və təhsil proqramlarının daxili özünüqiymətləndirilməsi aparılır. Diertorluqda direktor müavininin, fakültə dekanının illik hesabatları dinlənilir, xarici nəzarətin nəticələri, təhsilalanların aralıq və yekun attestasiyalarının nəticələri müzakirə olunur. Təhsilalanlar, məzunlar və işəgötürənlərlə anket sorğusu aparılır.

## 5. Keyfiyyətin təmin olunması sahəsində siyasətin məqsədi

5.1. Təhsildə keyfiyyətin daxili təmin olunması sahəsində siyasətin ümumi strukturunu müəyyən etmək;

5.2. İnnovasiyalı təhsil və elm mühitinin yaradılması;

5.3. Ölkənin və regionun inkişafı üçün, təhsilalanların potensiallarının maksimum açılması ilə effektiv yüksək ixtisaslı, zamanın tələblərinə cavab verən, seçdiyi ixtisas üzrə dərin biliyə və erudisiyaya malik, istehlakçıların fasiləsiz dəyişən tələbatlarını təmin edən, geniş dünyagörüşə və mənəvi məsuliyyətə malik, öz ixtisas fəaliyyətini yerinə yetirən və daim təkmilləşdirən, gözlənilməz şəraitdə qərar qəbul etməyə hazır olan, şəxsi, cəmiyyət və dövlət mənafelərini birləşdirməyi bacaran kadr hazırlığını həyata keçirmək;

5.4. Filial təhsilinin (bütün ixtisaslar üzrə) mövcud sisteminin inkişaf etdirilməsi;

5.5. Aparılan elmi-tədqiqat işlərinin səviyyəsini beynəlxalq səviyyəyə yüksəltmək;

5.6. Kadrların ixtisaslarının artırılması və yenidən hazırlanması;

5.7. Təhsilin keyfiyyətinin təmin edilməsi və təkmilləşməsinə şərait yaratmaq;

5.8. Təhsilalanların mobilliyinə və təhsilin nəticələrinin Milli təhsil sistemi çərçivəsindən kənarda tanınmasına nail olmaq:

## 6. Daxili keyfiyyətin təminatı mexanizmləri

6.1. Keyfiyyətli müəllim seçilməsi mexanizminin təkmilləşdirilməsi, məhsuldar və yaradıcı iş üçün şəraitin yaradılması, şəxsi məsuliyyətə əsaslanan sistemin yaradılması, hər bir işçinin əməyinin qiymətləndirilməsi və stimullaşdırılması yolu ilə Filialın professor-müəllim heyətinin və tədris köməkçi heyətin peşə hazırlıqları səviyyəsinin artırılması və peşə bacarıqlarının inkişaf etdirilməsi;

6.2. Əlavə resursların cəlb edilməsi, Filialın əməkdaşlarının və tələbələrin praktiki vərdişlərinin və ixtisaslarının artırılması, yüksək ixtisaslı kadr hazırlanması və təhsil prosesi üçün dolğun bazanın təmin edilməsi məqsədi ilə universitetin elmi-tədqiqat və innovasiya fəaliyyətinin miqyasını artırmaq və sferasını genişləndirmək;

6.3. Təhsil prosesinin və elmi-tədqiqat fəaliyyətinin inteqrasiyası, bütün təhsil dövrü müddətində tələbələrin tədqiqat işlərinin aparılmasına cəlb edilməsi siyasətini fasiləsiz olaraq həyata keçirmək;

6.4. Rəhbərlikdə səlahiyyətlərin optimal paylanması, daim onların hesabat vermələrini təşkil etmək, tapşırılmış iş sahəsi üçün onların məsuliyyətinin artırılması, keyfiyyətin yaxşılaşdırılması üçün səmərəli korreksiyaedici tədbirlərin görülməsi ilə, təhsil prosesinin keyfiyyətinin monitorinqini nizamlı olaraq həyata keçirmək və müasir menecment metodları əsasında Filialın idarəetmə sistemini təkmilləşdirmək;

6.5. Əmək bazarının tələbatlarına uyğun olaraq yeni ixtisas və ixtisaslaşmalar açmaq, təhsilin məzmununun keyfiyyətini fasiləsiz yüksəltmək;

6.6. Təhsilalan və müəllimlərin mobilliynin artırılması,təhsil, elm və yüksək texnologiyalar sahəsində beynəlxalq əlaqələrin genişləndirilməsi;

6.7. Fəaliyyətin çoxpilləli və fasiləsiz təhsil sistemi çərçivəsində inkişaf etdirilməsi;

6.8. Yeni təhsil standartlarına keyfiyyətli keçidin təmin edilməsi, onlar əsasında yeni təhsil plan və proqramlarının, tədris-metodiki vəsaitlərin hazırlanması, ixtisasçıların hazırlanması üçün kompetensiyalı (səriştə) yanaşmanın təd\tbiq edilməsinin səmərəli mexanizminin işlənib hazırlanması;

6.9. Təhsilalanların biliklərin daim yenilənməsi gələcək peşə fəaliyyətlərinə

hazırlığı, müstəqilliyin inkişaf etdirilməsi, yüksək mədəniyyətli, sosial aktiv və hərtərəfli inkişaf etmiş şəxsiyyət kimi formalaşdırılması ;

6.10. Keyfiyyət meyarlarını nəzərə almaqla təhsil prosesininin təşkili və keçirilməsini təkmilləşdirmək, təhsilalanların müvəffəqiyyətlərinə obyektiv nəzarət;

6.11. Tədris-metodiki və təhsil sahəsində digər normativ sənədlərin işlənilib hazırlanması və təkmilləşdirilməsi;

6.12. Tədris metodiki və maddi-texniki təminatı təkmilləşdirmək, təhsil prosesinə potensial işəgötürənləri cəlb etmək, müasir təhsil texnologiyalarını tətbiq etmək;

6.13. Filialın professor-müəllim heyətinin, digər əməkdaşlarının və təhsilalanların sosial müdafiəsinin, təhsil prosesinin maliyyə və maddi təchizatının təmin edilməsi sisteminin təkmilləşdirilməsi;

6.14. Filialın informasiya və kommunikasiya təminatınmı inkişaf etdirmək;

6.15. Ölkənin digər ali təhsil müəssisələri ilə əlaqələri möhkəmləndirmək;

6.16. Filialın təhsil infrastrukturunu inkişaf etdirmək və təkmilləşdirmək;

6.17. Filialda daxili mədəniyyəti və tərbiyə işinin keyfiyyətini yüksəltmək, tələbələrin və müəllimlərin əxlaqi, şəxsi özünü dərk etmələrinə gətirib çıxaran, tərəf müqabil, qarşılıqlı hörmət münasibətləri mühitinin formalaşdırılması, dəyərlər sistemi kimi korporativ mədəniyyəti qoruyub saxlamaq və inkişaf etdirmək, təhsildə keyfiyyətin təmin edilməsi üçün tələbə özünüidarəçiliyinin rolunu yüksəltmək, dərs məşğələlərinini, mədəni-kütləvi tədbirlərin, tələbə həyatının əmək sferasının tərbiyəvi potensialından səmərəli istifadə etmək;

6.18. Təhsil prosesinin keyfiyyətinin yüksək səviyyəsini təmin etmək üçün Filialda keyfiyyətin təmin olunması sahəsində idarəçilik sisteminin işlənilib hazırlanması, tədbiq edilməsi və inkişaf etdirilməsi;

## 6.Keyfiyyətin təmin olunması sahəsində məsuliyyət

**6.1** Keyfiyyətin təmin olunması və artırılması üçün Filial rəhbərliyi, fakültə, kafedra və struktur bölmələri ümumi məsuliyyət daşıyırlar.

**6.2 Direktor**- Filiala ümumi rəhbərliyi həyata keçirir, təhsil proqramlarının tam həyata keçirilməsini təmin edir, Filialın fəaliyyətinin normativ və qanunverici tələblərə uyğun olması üçün məsuliyyət daşıyır.

**6.3 Direktorluq (Direktoryanı Şura)** - Filialı idarə etmənin kollegial orqanıdır. Filialın inkişaf konsepsiyasını müəyyən edir, Filialın fəaliyyətinin bütün növlərinin əsas təşkili məsələlərinin həlli üçün qərarlar qəbul edir. Keyfiyyətin təmin edilməsi siyasətini, akademik siyasəti, təhsil planlarını, təhsilalanların təhsil nəticələrini qiymətləndirmə qaydalarını təsdiq edir.

**6.4 Tədris və Elmi işlər üzrə direktor müavini** - Filialın inkişaf proqramının işlənilməsini və həyata keçirilməsini təmin edir, tədris və elmi fəaliyyətinə ümumi rəhbərlik edir. Filialın tədris, tədris-metodiki işlərini planlaşdırır, təşkilnə nəzarət edir, fənn proramlarının işlənib hazırlanması və monitorinqi presuduralarına məsuliyyət daşıyır.

**6.5 Dekan** - Fakültəyə ümumi rəhbərliyi həyata keçirir, keyfiyyətin təmin olunması siyasətinin həyata keçirilməsinə, uyğun təhsil proqramlarının həyata keçilirməsi üçün üçün standart və tələblərin tənzim edilməsinə məsuliyyət daşıyır.

**6.6 Kafedra müdirləri** - Professor-müəllim heyyətinin tədris-metodiki,elmi-tədqiqat,tərbiyə işlərini planlaşdırır və həyata keçirirlər. Uyğun təhsil proqramlarının işlənilib hazırlanması, monitorinqi və təkmilləşdirilməsi sahəsində məsuliyyət daşıyır.

**6.7 Professor-müəllim heyəti** - Tədris prosesinin keyfiyyətinə, tədris-metodiki sənədlərə, uyğun təhsil proqramının təhsil prosesinin məqsəd və təhsil nəticələrinə məsuliyyət daşıyırlar.

**6.8 Kitabxana** - Təhsil prosesini tədris, tədris metodiki, elmi ədəbiyyatla təmin edir.

**6.9 Tələbələrlə iş və ictimaiyyətlə əlaqələr şöbə müdiri** - Filialın sosial fəaliyyətinə və tərbiyə işinə rəhbərlik edir, təhsilalanların keyfiyyətli sosial şəraitlərinə məsuliyyət daşıyır.

**6.10 Təsərrüfat şöbəsinin müdiri** - Filialın təsərrüfat fəaliyyətinə rəhbərlik edir, Filialın infrastrukturu, əməkdaşlar və təhsilalanlar üçün sağlam və təhlükəsiz şəraitin yaradılmasına məsuliyyət daşıyır.

**6.11 Bütün struktur bölmələrinin rəhbərləri** - Bölmənin fəaliyyətinin müəyyən edilmiş məqsəd, vəzifə və funksiyalarına uyğunluğunu təmin etmək üçün məsuliyyət daşıyırlar. Keyfiyyətin təmin edilməsi və artırılması detalları struktur bölmələrinin, kollegial orqanların əsasnaməsində və vəzifə təlimatlarında verilmişdir.

## 7.Filialda keyfiyyətin təmin olunması sahəsində qiymətləndirmə meyarları

7.1 Keyfiyyətin təmin olunması sahəsində siyasətin qəbul olunması və təsdiqlənməsi prosedurları;

7.2 Təhsil proqramlarının keyfiyyətinin təmin olunmasının daxili siteminin təşkil olunması, rəhbərliyin, professor-müəllim heyyətinin və təhsilalanların keyfiyyətin təmin olunması siyasətinin formalaşdırılmasında və həyata keçirilməsində iştirakı.

7.3 Fakültənin, kafedraların və digər struktur bölmələrinin təhsil proqramlarının keyfiyyətinin təmin olunması siyasətinin həyata keçirilməsində xarici maraqlı tərəflərin iştirakı.

7.4 Təhsil proqramlarının keyfiyyətinin təmin olunması siyasətinin keçirilməsində təhsil, tədris və elmi-tədqiqatın qarşılıqlı əlaqəsinin dərəcəsi.

7.5 Cəmiyyətlə əlaqə, daxili kommunikasiyalar və abituriyentlər üçün təşviqat materiallarında düzgünlük və obyektivlik;

7.6 Korrupsiyaya qarşı mübarizə siyasəti təhsil proqramlarının keyfiyyətinin təmin olunması siyasətinin həyata keçirilməsində ən əsas element olmalıdır. Antikorrupsiya tədbirləri, müəllimlər və təhsilalanlar üçün Filial və fakültə rəhbərliyi ilə əlaqənin mövcud olması, müəllimlərin və təhsilalanların sorğularına

çevik reaksiya verilməsi;

7.7 Sistemli monitorinq, səmərəliliyin qiymətləndirilməsi, informasiyaların təhlili əsasında təhsil proqramlarının keyfiyyətinin təmin olunması siyasətinin həyata keçirilməsinə yenidən baxılması, təhsil proqramlarının keyfiyyətinin təmin olunması siyasətinə ətraf mühitin və şəraitin (əmək bazarı, tərəf müqabillər, dünyada dəyişiklər) dəyişməsi ilə yenidən baxılma proseduru;

7.8. Təhsil proqramlarının keyfiyyətinin təmin olunması siyasətinin həyata keçirilməsi sahəsində təkmilləşdirməyə nail olmaq üçün görülən işlər haqqında maraqlı tərəflərin dövrü olaraq məlumatlandırılması.